**Azər Əli oğlu QASIMOV**
Azərbaycan İlahiyyat İnstitutu Dinin tarixi və fəlsəfəsi ixtisasının doktorantı
E-mail: azikqasimli@mail.ru

# SALİM İBN ZEKVANIN "ƏS-SİRƏ" ƏSƏRİNDƏ İLK DÖVR İMAN-SİYASƏT ƏLAQƏSİ

**Xülasə**

Salim ibn Zekvan, Hicri təqviminin I əsrində yaşamış Xarici / İbadi düşüncənin görkəmli şəxsiyyətlərindən biridir. "əs-Sirə" adlı əsərində əhəmiyyətli Xarici / İbadi düşüncələri ortaya qoymuşdur. Salim əsərində, dövrünün mühüm hadisələrinə yer vermişdir. Hz. Osman və Hz. Əlinin siyasi, sosial və hüquqi qərarlarını ağır şəkildə tənqid etmişdir. Xariciliyin iman anlayışı, ilk dövr siyasi, sosial və mədəni hadisələr çərçivəsində formalaşmışdır.

Xaricilər imanı; söz, iqrar və fəaliyyət kimi şərh etmişlər. Cəmiyyətdə inkişaf edən, siyasi və hüquqi hadisələri iman kontekstində dəyərləndirmişlər. Hz. Osman dövrü ilə başlayan iman-siyasət əlaqəsi, xaricilərlə zirvəyə çıxmışdır. İman; mütləq, sonsuz və müqəddəs olanı səmimi olaraq qəbul, idrak və təsdiqdir. Bu qəbul və təsdiq; müsbət, mənalı və məsuliyyətli bir əxlaqı / davranışı doğurur. Doğru bir iman,bəşəri olan bütün subyektiv qayğı və mənfəətlərin məhsulu olan imandan fərqlidir.

**Açar sözlər:** *Salim ibn Zekvan, "əs-Sirə", Xarici, İbadiyyə, İman, Siyasət.*

**UOT:** 32
**DOİ:** 10.54414/mhtq9335

## Giriş

Salim ibn Zekvan "əs-Sirə" adlı əsərində, Xarici / İbadi düşüncənin vacib kodlarını və ilk dövr iman-siyasət əlaqəsini ortaya qoymuşdur. "əs-Sirə" adlı əsərində xüsusilə Hz. Osman və Hz. Əli dövrü hadisələrini şərh etməsi üsulu ilə Xarici / İbadi düşüncənin iman-əməl kontekstində şərhinin konkret nümunələrini əks etdirmişdir. Salim, eyni zamanda siyasi hadisələri iman kontekstində dəyərləndirərək, bu düşüncənin mühüm fiqurlarından biri olmuşdur.

Din,fərd və cəmiyyətin həyatında ən effektiv dəyərlərdən biridir. Fərdə və cəmiyyətə təsir edən, istiqamətləndirən, həyəcan və ruh verən bir motivasiyadır. Buna görə də din, heç bir siyasi, hüquqi, fərdi və sosial məqsədə xidmət etmir. Həmçinin yanlış bir inancın və düşüncənin fanatizminə də qurban edilə bilməz. Dini mətnlər öz bütövlüyü içərisində, göndərilmə məqsədi diqqətə alınmadan götürüldükdə, əslində onlara istənilən şərhlərin yükləndiyi görünür. Dini fanatizmin ən problemli səbəblərindən biri, ilahi əmrlərə məna yükləyib gündəlik həyata tətbiq edərkən, məqsədinə zidd olan şərhlərdir. Öz siyasi və fikir anlayışını mütləq doğru kimi qəbul etmə və bu fikirləri başqalarına zorla qəbul etdirmə cəhdi, xaosa və narahatlığa səbəb olur. Bunun nəticəsində insanlar, yanlış bir istiqamətə və məqsədə doğru yönəlir, bölünür, qruplaşır, ayrılır və bir-birlərinə düşmən olurlar. Beləliklə əsl məqsədi insanları birlik, bərabərlik və qardaşlıq duyğuları içində biryerdə yaşatmaq olan din, bu məqsədindən uzaqlaşdırılaraq, bir problem və xaos şəklində qarşımıza çıxır. Xüsusilə də bəzi pis niyyətli şəxslərin əlində şiddət, zülm və xaos vasitəsinə çevrilir.

Qurani-Kərim imanı, uca və müqəddəs dəyər prinsipləri kimi müəyyənləşdirmişdir. Bu dəyərlərə müstəqil şəkildə inanmağa çağırır və İslam inancının dəyərlərini qəbul edib-etməmək barəsində insanlara müstəqillik verir. Bu mövzuda heç bir təzyiq və istiqamətləndirməni qəbul etmir. Allah, öz adına heç bir şəxs və ya təşkilata, iman və ibadətlərdə təzyiq və məcburetmə haqqı verməmişdir. Quran, Hz. Məhəmmədə də vəhyi təbliğ etməyi və əsla bu barədə təzyiq göstərməməyi buyurmuşdur.

## Salim ibn Zekvanın həyatı və əsərləri

Salim ibn Zekvanın nə vaxt, harada doğulduğu və nə zaman vəfat etdiyi barədə mənbələrdə dəqiq məlumat yoxdur. Hicri I / Miladi VII əsrdə yaşadığı və bu əsrin sonlarında dünyasını dəyişdiyi fərz edilir. Erkən dövr müsəlman müəlliflər içində mühüm yer tutur. Sadəcə "əs-Sirə"nin tədqiqindən onun Hicri I /

Miladi VII əsrdə yaşadığı və əsrin sonlarında vəfat etdiyi fikri irəli sürülmüşdür [6, s. 15-16].

Tarixi mənbələrdəki bəzi məlumatlar da dəqiq deyildir. Fərruxi Sistaninin "Tarixi Sistan" əsərində ərəblər tərəfindən işğal olunan Bust şəhərində Salim adlı bir gəncin olduğu və daha sonra tanındığı qeyd edilmişdir [6, s. 15]. badi alim Şəmmaxi (928/1522), onun İbadiliyin görkəmli nümayəndəsi Cabir ibn Zeydlə (93/712) məktublaşdığını və tanınmış İbadi-lərdən biri olan Əbu Ubeydə Müslim ibn Əbi Kərimə (145/762-763) ilə də eyni dövrdə yaşadığını qeyd etmişdir [1, s. 235].

Salim ibn Zekvanın Cabir ibn Zeydlə məktublaşması və həm də Cabirdən təxminən əlli il sonra vəfat edən Əbu Ubeydin müasiri olması mümkün deyil. Buna görə də Şəm-maxinin verdiyi məlumatlardan yalnız biri doğrudur [7, s. 467].

Liviyalı İbadi tədqiqatçısı Əmr Xəlifə ən-Nami, Şimali Afrikada naməlum bəzi İbadi əlyazmalarıyla bağlı qələmə aldığı bir məqa-ləsində, bənzər bir fikir irəli sürərək, Cabir ibn Zeydə aid olan risalələr kolleksiyası içərisində, onun Salimə yazdığı bir risaləsinin olduğunu demişdir [2, s. 15-17]. Bu mövzuyla maraqlanan bəzi tədqiqatçıların fikrincə də o, Cabirin mü-asiri olmuşdur. Bu məlumatlar əsasında, Salimin Hicri təqvimi ilk əsrində yaşadığı ortaya çıx-mışdır. Salimin əsərində Xariciliklə bağlı 70/689 ilindən sonrakı hadisələrə yer verilməməsi, Mürciə məzhəbinin sadəcə ilk təşəkkül dövrü ilə bağlı məlumatların olması, həm Salimin Cabir ibn Zeydlə eyni dövrdə yaşadığını, həm də əsərin 70/689-cu illərin əvvəlində yazıldığını göstərir [7, s. 467-469].

Salimin 717-719/99-101 illəri arasında yaşadığı, Ummanın Təvam bölgəsində doğul-duğu deyilir. Salim haqqında ən çox bilinən xüsusiyyət, Ömər ibn Əbdüləzizin yanına gedən altı nəfərlik qrupun içində olmasıdır. Salimin Ömər ibn Əbdüləzizin yanına gedən altı nəfərlik qrupun içində olması və yazdığı "əs-Sirə" adlı əsəri, Salimin İbadiyyə firqəsi içində mühüm bir elmi və fikir şəxsiyyəti olduğunu göstərir [4, s. 99].

"Sirə"ni nəşr edən Patricia Crone və Fritz Zimmerman, onun Cabir ibn Zeydlə (93/712) məktublaşması, Bəsrədən kənarda yaşadığını ağla gətirsə də lakin onun haralarda və dəqiq hansı dövrdə yaşadığının bəlli olmadığını söyləmişlər [5, s. 12-16].

Salim, "əs-Sirə" adlı əsərinin ilk bölməsində Quranın nazil olma səbəbi və xüsusiyyətləri, tövhidin mənası və əhatə etdikləri, təqva və cihadın əhəmiyyəti kimi mövzuları işləmişdir. Bu bölmənin davamında elçilər, elçilərin vəzifələri, bu kontekstdə Hz. Məhəmmədin mövqeyi və vəzifəsini, onun dövründə Ərəbistan yarımadasında olan Əhli-Kitab, Məcusilər və müşriklər kimi dini icmaları işləmişdir. Daha sonra dörd xəlifə haqqında məlumat vermişdir. Hz. Osman və Hz. Əli dövrü ətraflı şəkildə izah edilmişdir. Xariciliyin meydana gəlməsinə zəmin hazırlayan Cəməl, Siffeyn döyüşləri və Təhkim hadisəsi xüsusilə işlənmişdir. Daha sonra Salim, Əzrəqi və Nəcədat kimi Xarici firqələrindən də bəhs etmişdir. Əsər, ilk Xarici firqələrlə bağlı məlumatları, Xaricilərə aid orijinal bir mənbədən bizə təqdim edir. Salim, əsərinin son bölməsində Mürciəyə tənqidlər yönəltmiş, Səbbabə adlandırdığı Səbəiyyədən bəhs etmiş və Fətənə kimi ifadə etdiyi fitnə qrupu və bu qrupun düşüncə və inanc tərzindən də söhbət açmışdır [7, s. 100-114].

Salimin "əs-Sirə" adlı əsəri, ilk dövr Kəlam, Etiqadi İslam Məzhəblər Tarixi və İslam Tarixi ilə bağlı əhəmiyyətli və orijinal bir əsərdir.

Əsərin elmi dairələrdə meydana çıxması, daha yeni sayılan bir dövrlə üst-üstə düşür. "əs-Sirə"nin meydana çıxmasıyla birlikdə, xüsusiylə Məzhəblər Tarixi ilə bağlı bəzi düşüncə və baxış tərzləri müzakirə olunmuş və bunların bir qismi dəyişmək məcburiyyətində qalmışdır. "əs-Sirə", Xariciliklə bağlı məlumat verən ilk mənbə əsər olmaq xüsusiyyətinə də sahibdir. Əsər həm də erkən dövr İslam Tarixində meydana çıxan hadisələri və inkişafı İbadi / Xarici baxış bucağı ilə ortaya qoymuşdur.

**Salim ibn Zekvanın "əs-Sirə" əsəri kontekstində iman və siyasət anlayışı**

Salim ibn Zekvan əsərində ilk dörd xəlifə haqqında dəyərləndirmələr də aparmışdır. Salim, Hz. Əbu Bəkr və Hz. Ömərin seçki prosesi, siyasi və hüquqi qərarları haqqında təfərrüata toxunmadan, müsbət və xalqın məmnun olduğu bir dövr kimi bəhs etmişdir. Salim, Hz. Əbu Bəkr və Hz. Ömərin seçil-mələrini və xəlifəliklərini hüquqi və doğru bir qərar olaraq görmüşdür. Səhabənin, Hz. Məhəmmədin vəfatından sonra, din, dövlət və

cəmiyyət üçün içlərində Allaha ən yaxın olan, ədalət və dürüstlük sahibi Hz. Əbu Bəkri seçdiklərini ifadə etmişdir. Hz. Əbu Bəkrin seçilməsi, idarəetmə və qərarlarının doğru olduğunu, Allahın elçisinin qədim dostu, hicrət və mağara yoldaşı olduğunu, haqq və ədalətli bir idarəçilik gerçəkləşdirdiyini bildirmişdir [6, s. 56]. Hz. Ömərin seçilməsinin məsləhətləşmə ilə həyata keçirildiyini, Allahın kitabı, elçisinin üsulu və Əbu Bəkrin yolu üzrə olduğunu qeyd etmişdir. Salim, Hz. Ömərin hakimiyyəti dövründə, Quranda və sünnətdə mövzuya alınmamış miras hökmləri kimi yeni hüquqi hadisələrin yaşandığını və Hz. Ömərin bu mövzularda fikir bildirdiyini söyləmişdir. Hz. Ömərin, müsəlmanların mənimsədiyi və tətbiq edəcəkləri bir üsulu izlədiyini bildirir. Hz. Ömərin, idarəetmə və tətbiqetmə olaraq Hz. Məhəmməd və Hz. Əbu Bəkrin idarəçilik tərzini mənimsədiyini, buna görə də möminlərin də ondan razı olduğunu zikr edir [6, s. 56-58]. Salim, fikirlərinin təməli ayələr olduğuna görə Hz. Ömər dövründə idarəetmə, hüquqi, dini və sosial mövzuları ayələrlə əlaqələndirmişdir [3, Nisa 4/59]. İlk iki xəlifənin Quranı rəhbər tutduqlarını, Allahın elçisinin üsuluna uyğun davrandıqlarını və ədaləti təmin etdiklərini, müsəlmanların razı olduqları bir idarəçilik tərzi sərgilədiklərini bildirmişdir.

Salim, Hz. Osman və Hz.Əli dövrü hadisələrini Xarici / İbadi baxış bucağı kontekstində ələ almış və dəyərləndirmişdir. Bu dövrün siyasi və hüquqi qərarlarını ayələrlə şərh etmiş, mühafizəkar və qatı bir üslub seçmişdir. Siyasi zəmində, əməl / iman kontekstində və təkfir düşüncəsi əsasında dəyərləndirmələr aparmışdır. Hz. Osmanın müsəlmanların məsləhət və razılığıyla xəlifə olduğunu, bir dövr Allahın kitabı və Nəbisinin sünnətinə əməl etdiyini, daha sonra dünyaya meyl etdiyini, sünnəti dəyişdirərək bidətlər ortaya çıxardığını irəli sürmüşdür. Hz.Osmanın, Quran, sünnət və ədalət əleyhinə qəbul etdiyi qərarları, ayələr kontekstində tənqid etmişdir.

Həmçinin müsəlmanların Hz. Əliyə, Allahın kitabına əməl edəcəyinə, Hz. Məhəmməd və ondan sonra gələn iki xəlifənin yolunu izləyəcəyinə dair söz alaraq itaət etdiklərini zikr etmişdir. Hz. Əlinin hakim hadisəsiylə Allahın hökm verdiyi bir işdə, Allahdan başqa bir hakim təyin edərək, müsəlmanların yolundan döndüyünü; buna görə də Allahın hökmünü etibarsız hesab edib üz döndərdiklərini söyləmişdir [6, s. 58-65].

Salim, Xariciliyin Əzrəqi və Nəcədat firqələrini də təhqir və pozğunluqla bağlı tənqid etmişdir. Mürciə firqəsini də əsərində dəyərləndirən Salim, irca fikrinə görə Mürcəni təhqir və pozğunluqla ittiham etmişdir [6, s. 81-88]. Mürciənin öz fikirlərini din kimi seçdiklərini, dini öz mənfəətləri naminə şərh etdikləri kimi ittihamlar irəli sürmüşdür. Mürciə, Hz. Osman və Hz. Əlinin taleləri Allahın hökmünə buraxma fikrini müdafiə etmişdir.

Salim Mürciənin, bir nəfərin şahid olmadığı və görmədiyi bir mövzuda, bir kimsə üçün yolunu azmışdır, deyənin özü yolunu azmışdır, düşüncəsini tənqid etmişdir. Salim, Mürciənin: Hz. Osman, Hz. Əli və böyük günah işləyənlər təkfir edilə bilməz, düşüncəsini bu kontekstdə tənqid etmişdir [6, s. 83-88].

**Salim ibn Zekvanın imanla əlaqələndirdiyi Hz. Osman dövrünün hadisələri**

Hz. Osman, dövlət malını haqsız şəkildə qohumlarına artıqlamasıyla vermişdir. Mərvana İfriqiyə ərazisinin beşdə birini; Haris ibn Hakimə Bəhreynin gəlirini; Vəlid ibn Üqbəyə Kəlb qəbiləsinin gəlirini verdi. Məkkə valisi Haris ibn Nofələ əmisi Hakimə üç yüz min dirhəm verməyi əmr etdi. Hz. Osman bu qərarlarına görə Allahın hökmünü yox sayıb Qurandan başqa bir şeylə hökm vermiş oldu [3, əl-Maidə 5/44].

Hz. Osman ictimai vəsaitlə ərazi alıb üstündə evlər inşa etdirdi və onu uşaqlarıyla ailəsinə payladı [3, əl-Həşr 59/7].

Vəlid ibn Üqbə, Kufəli müsəlmanların salehlərindən olan bir nəfəri öldürdü. Osman, Vəlidin cəzası ölüm olduğu halda öldürülməsinin əleyhinə çıxdı. Fəqət Allah cana can deyib [3, l-Maidə 5/45].

Vəlid ibn Üqbə,içki içmiş, Osman onunla olan yaxınlığına görə ona cəza verməyin əleyhinə çıxmışdır.

Hz. Osman bədəvilərə aid yağış sularıyla sulanan əraziləri özünə ayırdı. Oranı ətrafındakıların və ailəsinin mülkü elan etdi [3, əl-Maidə 5/47].

Bədəviləri müharibə gəlirlərinə ortaq olmamaları üçün cihaddan uzaqlaşdırdı [3, əl-Fəth 48/16].

Allahın elçisi, Əbu Bəkr və Ömər, bədəviləri müsəlmanlarla birlikdə cihada çağırmışdılar. Osman, bu mövzuda Hz. Peyğəmbərin sünnətinin əleyhinə çıxdı [3, Nisa 415].

Osman, Allahın Elçisinin dostları olan fəqihləri vəzifələrindən azad edərək, bacarığı olmayan qohumlarını vəzifəyə gətirdi [3, Sad 38/26]. Möminlər Osmanı bu mövzuda xəbərdar edib səmimi tövsiyyələr verdilər. Fəqət o, onları alçaltdı, təhqir və işgəncə edərək haqsız bir şəkildə onları sürgün etdi [3, Bəqərə 84-86].

Osman, insanların içərisində öz əleyhinə olan şəxsləri, casuslar vasitəsiylə öyrənir və onları qənimətdən məhrum edirdi. Onların malını ələ keçirir, qamçıladır və başqa ağır cəzalar verirdi [3, Nisa 4/29-30].

Osman, Beytülmal zabiti Abdullah ibn əl-Ərkamdan borc aldı, Ərkamın xəbərdarlıqlarına baxmayaraq geri vermədi və onu vəzifədən azad etdi.

Əbu Musa əl-Əşarinin, İraqdan dövlət xəzinəsinə aid gətirdiyi malı, Osman qızları və ailəsinə vermiş, Əbu Musa bu hadisəyə görə ağlamışdır.

Hz. Osman, Mədinədəki üsyana görə Mədinəlilərin küfrə düşdüyünü və itaətdən çıxdıqlarını Muaviyəyə yazmışdı.

Misir valisinə yazılan məktubu onun yoxsa başqa birinin yazdığı soruşulanda Osman bu barədə məlumatının olmadığını bildirmişdir. Osman bu hadisədə günahsız olsa belə bu işin səbəbkarını tapmalı idi.

Osmanın ədalətsiz qərarlarına görə idarəçiliyi tərk etməsi istənilsə də, o bunu qəbul etmədi.

Dinar ibn İyaz adlı bir müsəlman öldürüldü, qatilin cəzalandırılması Osmandan istənildiyi halda o, bunun əleyhinə çıxdı.

Dinar ibn İyazın qisasını tələb edənlər, bu cinayəti törədən və buna dəstək çıxan şəxsləri öldürdülər. Öldürülənlərə qiblə əhlindən və qanı halal olan şəxslərin hökmü tətbiq edilmişdir [6, s. 63-65].

**Salim ibn Zekvanın imanla əlaqələndirdiyi Hz. Əli dövrünün hadisələri**

Talha və Zubeyr, Osmana xəlifəliyi müddəti ərzində rəqabət bəsləmiş və qarşı çıxmış, onun qanını tələb etmişlər. Osman öldürüləndə də onun qanı üzərində Hz. Əliyə qarşı çıxdılar. Onlar qarşı çıxdıqlarına görə Əlinin onlara qarşı mübarizəsi və hökmü doğrudur.

Hz. Əli Siffeyn döyüşündə Allahın hökm verdiyi bir mövzuda [3, əl-Mümin 40/20]. Allahdan başqa bir hakim təyin etdiyi üçün bu mövzuda Allahın hökmünü etibarsız hesab etmiş və ondan üz döndərmişdir [3, əl-Maidə 5/50].

Əli düşmənlərinin hökmünə razı olub, mühakimə olunmaq üçün Allahın hökmü yerinə onların hökmünü seçmişdir [3, əl-Ənam 6/114]. Allahdan başqa hakim axtarılmış və Allahın dinində ədalətli olmayan şəxslər hakim təyin olunmuşdur [6, s. 67].

**Salim ibn Zekvanın Xaricilərin siyasi çıxışlarını imanla əlaqələndirmə səbəbləri**

Salimin "əs-Sirə" adlı əsərində, Hz. Osman və Hz. Əli dövrü ilə bağlı dəyərləndirmələri, Xarici / İbadilərin iman və siyasət düşüncələrini əks etdirir. Yaşanılan siyasi hadisələr imanla əlaqələndirilmişdir. Hər dövlət idarəçiliyində olduğu kimi Hz. Osman və Hz. Əli dövründə də, müsbət və mənfi siyasi, dini və hüquqi qərarlar qəbul edilmişdir. Bu iki xəlifənin qəbul etdiyi doğru qərarlar olduğu kimi yanlış və haqsız qərarları da olmuşdur və ola bilər. Bunlar insani və təbii haldır. Quran insana məsuliyyət və vəzifələr yükləmişdir, buna görə də insanlar bu imtahanı və məsuliyyət hissini daşıyırlar. Hər bir şəxsin doğru və gözəl davranışları olduğu kimi, zəifliyindən qaynaqlanan xəta, günah və yanlışlıqları da olur. Xətasız və əksiksiz olmaq sadəcə Allaha məxsusdur. Bu səbəblə bu iki xəlifənin dövründə yaşanan hadisələr də insanidir. Yaşanılan hadisələri bu kontekstdə görmək və dəyərləndirmək lazımdır. Bu dövrdə baş verən hadisələri heç bir düşüncə, məzhəb, qəbilə və şəxsə aid etmədən ortaya qoymaq və dəyərləndirmək ən doğrusudur. İslam düşüncə tarixində siyasi və hüquqi hadisələrin imanla əlaqələndirilməsi və manipulyasiya edilməsi, xaricilərlə zirvəyə çıxmışdır. Bu düşüncə tərzi, Xaricilərin düşüncə və xarakterik xüsusiyyətlərini əks etdirir. Xaricilərin bu baxış bucağının təməli, tamamilə siyasətə söykənir.

**Nəticə**

Salim ibn Zekvan, İbadi / Xarici düşüncənin görkəmli simalarından biridir. Hicri təqviminin I əsrində yaşamış Salim, "əs-Sirə" adlı əsərini Xarici / İbadi düşüncə çərçivəsində qələmə almışdır. Əsər ilk dövr İslam tarixinin mühüm dini və siyasi hadisələrini əhatə edir. Salim, "əs-Sirə" adlı əsərində Qurani-Kərim, peyğəmbərlər, Hz.Məhəmmədin nübüvvət vəzifəsi,

dövrün inanc strukturu, ilk dörd xəlifə, Xaricilər, Mürciə, Səbəiyyə və Fətənə kimi mövzuları işləmişdir.

Salimin “əs-Sirə”sinin ən vacib xüsusiyyətlərindən biri, Hz. Osman və Hz. Əliyə yönəlmiş tənqidi və təkfir fikirlərdir. Salim, bu iki xəlifə dövründə yaşanılmış siyasi, dini, hüquqi və sosial hadisələri Xarici / İbadi baxış bucağı ilə nəzərdən keçirmiş və bu hadisələri imanla əlaqələndirmişdir. Salim, Hz. Əlini və Hz. Osmanı fərqli səbəblərə görə təkfir etmişdir. Hz.Osmanı təkfir etməyinin səbəbi Qurana və sünnətə zidd; siyasi, hüquqi və dini qərarlarıdır. Hz. Osman, xəlifəliyinin ikinci dövründə, Qurana, Sünnətə və özündən əvvəlki iki xəlifənin qərarlarına zidd davranmışdır. Qurana və sünnətə zidd davrandığı, təkfirə yol verən davranışları olduğu üçün müsəlmanlar tərəfindən öldürülmüşdür.

Salimin fikrincə, Hz. Əlinin təkfir edilməyinin səbəbi, Təhkim hadisəsini qəbul etməyidir. Onların düşüncəsinə görə tək Hz. Əli yox, Təhkimi qəbul edənlərin hamısı küfrə düşənlərdir.

Hz. Osman dövründə başlayan Siffeyn döyüşündən sonra zirvəyə çıxan siyasi fikirlərin Qurana söykənməsi düşüncəsi, siyasi hökmlərə dini bir mahiyyət qazandırmışdır. Bu düşüncə tərzi, müsəlman cəmiyyətinə dərindən təsir etmiş, buna cavab olaraq inanc zəminində fikirlər irəli sürülmüşdür.

Salim, siyasi hadisələri iman çərçivəsində dəyərləndirərək, imanın siyasiləşdirilməsinin fikir təmsilçilərindən biri olmuşdur. Bu baxış bucağı müəyyən müddət ərzində müsəlman cəmiyyətində, inanc, düşüncə və siyasi quruluşda fərqliliklərin yaşanmağına səbəb olmuşdur. İslam cəmiyyətinin təsir gücünü və ən mühüm dəyər hökmlərinin özəyini, iman / din təşkil edir. Dinin təsir gücü, bu dövrdə meydana çıxan anlaşmazlıqların zəminində qanuniləşdirilməyə çalışılmışdır. Bu vəziyyət, Xariciliyin düşüncə və inanc formasıdır.

Bu dövrdə inkişaf edən hadisələrin zəminində dinin olması, təbii, insani bir müdafiə refleksi kimi görünür. Hz. Osman və Hz. Əli də varlıq müstəvisində insandır. İmtahan və məsuliyyətdən irəli gələrək doğru və yanlışlarının olması təbii haldır. Qəbul etdikləri siyasi, hüquqi, dini və sosial qərarlar, doğru olduğu kimi xətalı və yanlış da ola bilər. Buna görə tənqid olunmaları da normaldır. Lakin bu tənqidlərin imanla əlaqələndirilməsi, din-iman kontekstində işlənməsi və təkfir edilməsi də yanlışdır. Dinin siyasi, hüquqi, sosial və fikir ayrılıqlarına və anlaşmazlıqlara hüquqi zəmin kimi göstərilməsi, dinin varlıq məqsədinə ziddir. Din, insana təhlükəsizlik və əmin-amanlığı təmin etmək, inanc və fikir azadlığını qorumaq üçün göndərilmişdir. Din insanın iradəsi ilə seçiminə buraxılmış ilahi prinsiplərin bütünüdür. Din üzərindən aparılan bu cür dəyərləndirmələr din və dini dəyərləri, ona olan inamı zədələyir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Əbül Abbas Şəmmaxi, “Kitabus-Siyər”, (Benqazi: Darül-Medaril-İslami. 2009) 1/235

2. Əmr Xəlifə ən-Nami, “A Description of New İbadi Manuscripts from North Africa, Journal of emitic Studies” (Oxford. 1970) 15/1

3. Qurani-Kərim (“Şərq-Qərb” Nəşriyyat evi. 2011)

4. Orhan Ateş, “Salim ibn Zekvanın “əs-Sirə” adlı əsərində Hz. Osmanla bağlı hissənin İbazi fikirləri baxımından dəyərləndirilməsi” 99

5. Patricia Crone-Fritz Zimmermann, “İntroduction, Salim b. Zekvan es-Sire” (New Oxford University Press. 2011) 12

6. Salim b. Zekvan, “əs-Sirə”, tər. Harun Yıldız, (Ankara: Ankara Okulu Yayınları. 2016) 15

7. Sönmez Kutlu, “Salim b. Zekvanın “əs-Sirə” adlı əsərindəki Mürciə bağlı bölmənin tərcüməsi”, 467

**Азер Али оглы ГАСЫМОВ**
докторант кафедры истории и философии религии
Азербайджанского Института Теологии
E-mail: azikqasimli@mail.ru

## РАННИЕ ОТНОШЕНИЯ ВЕРЫ И ПОЛИТИКИ В РАБОТЕ САЛИМА ИБН ЗЕКВАНА «ЭС-СИРЕ»

**Резюме:** Салим ибн Закван—один из выдающихся деятелей зарубежной/религиозной мысли, живший в I веке календаря хиджры. В своей работе под названием «ас-Сира» он раскрыл важные зарубежные/религиозные мысли. В своей творчестве он уступил место важным событиям своего времени. Он резко раскритиковал политические, социальные и юридические решения Хазрата Османа и Хазрата Али. Концепция веры чужеродности формировалась в рамках политических, социальных и культурных событий раннего периода.

Иностранцы интерпретировали веру как слово, исповедь и действие. Они оценивали политико-правовые события, происходящие в обществе, в контексте веры. Отношения между верой и политикой, начавшиеся с эпохи Хазрата Османа, достигли своего пика у иностранцев. Вера: это искреннее принятие, реализация и утверждение абсолютного, бесконечного и святого. Это принятие и утверждение: порождает позитивную, осмысленную и ответственную мораль/поведение. Истинная вера отличается от веры, являющейся продуктом всех субъективных забот и интересов человека.

**Ключевые слова:** *Салим ибн Зекван, эс-Сире, иностранец, религия, вера, политика.*

**Azer Ali GASIMOV**
Doctoral student of History and Philosophy of Religion, Azerbaijan Institute of Theology
E-mail: azikqasimli@mail.ru

## THE EARLY FAİTH-POLİTİCS RELATİONSHIP İN SALİM IBN ZEKVAN'S "ES-SİRE" WORK

**Summary:** Salim ibn Zakwan is one of the prominent figures of foreign/religious thought who lived in the 1st century of the Hijri calendar. In his work called "as-Sira" he revealed important foreign / religious thoughts. In his work, he dealt with the important events of his time. He severely criticized political, social and legal decisions of Hazrat Ali and Hazrat Osman. The faith concept of foreignness was formed within political, social and cultural events of the early period.

Foreigners interpreted faith as word, confession and action. They evaluated the political and legal events developing in the society in the context of faith. The relationship between faith and politics, which began with the era of Hazrat Osman, reached its peak with foreigners. Faith: is the sincere acceptance, realization and affirmation of the absolute, infinite and holy. This acceptance and affirmation: engenders a positive, meaningful and responsible moral/behaviour. A true faith is different from a faith that is the product of all subjective concerns and interests that are human.

**Keywords:** *Salim ibn Zakwan, "as-Sira", foreign, religion, faith, politics.*

**Daxil olub:** 28.07.2022